**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№378/3** **13 avqust 2025-ci il**

**“Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflər barədə”**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.2-ci “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən bir sıra xarici ölkələrin təcrübəsindən yararlanmaqla təqdim olunmuş materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Təqdim olunmuş materiallar əsasında aparılmış təhlillər və xarici təcrübələr nəzərə alınmaqla haqsız rəqabətə qarşı mübarizə sahəsində təklif olunan mexanizmlər və tədbirlər bəyənilsin (əlavə olunur).

2. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) və Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, bir ay müddətində təklif olunan istiqamətlərin Auditorlar Palatasının 2026-cı il və növbəti illərin iş planına daxil edilməsi barədə Tədbirlər Planını hazırlayaraq təqdim etsinlər.

3. Bu qərarın və “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflər barədə” materialın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**